# GÜN İŞIĞI

*Hekayə*

Soyuq payız yağışı ara vermədən yağırdı. Adama elə gəlirdi ki, heç vaxt kəsməyəcək. Usta Qədir pəncərənin qarşısında dayanıb yağışın kəsməsini gözləyirdi. Yağış qəfildən kəsdi və sulu qar yağmağa başladı.

Bir həftə idi ki, yağış beləcə aravermədən tökürdü və sonra sulu qar yağırdı. Usta Qədir də gəlib dururdu pəncərənin qabağında, dua oxuyurdu. - Şükr, İlahi, - deyirdi, - Səni tanımayana lənət. Hələ belə şey görməmişəm bu yaşacan, məsləhət sənindir. Özün bilən yaxşıdır. Biz kimik ki? İnşallah, hava açılar, gedərik bir işin, gücün dalınca.

Bayaq dediyim kimi, bir həftə idi ki, yağış ara vermədən yağırdı, sonra bu yağış sulu qara çevrilirdi. Usta Qədir də gəlib dururdu pəncərənin qabağında... O yadımdan çıxdı deyəm ki, arvadı Zərri də evdəki iş-gücünü buraxıb ona baxırdı, ərinin səbrinin nə vaxt tükənəcəyini gözləyirdi... Daha bu dəfə dözə bilmədi, səbir kasası dolub-daşdi:

- A kişi, yorulmadın pəncərədən baxmaqdan, hə? Çıx bir çölə, get usta və fəhlələrin durduğu meydana. Gör bəlkə bir iş-miş oldu işləməyə. Axı sabaha heç çörək pulumuz da qalmayıb.

O sözlər elə bil usta Qədirə deyilmədi, sanki başqa adama deyildi. Çünki Qədirin heç tükü də tərpənmədi. Pəncərədən aramsız baxmağındaydı. Yenə dua edirdi:

- İlahi, kəməminə şükr, nə qədər yağdırırsan yağdır, öz yerin, öz yurdundur, biz kimik ki! Mərhəmətini üstümüzdən əskik eləmə.

Qədir usta duasına ara verdi, qınayıcı nəzərlə arvadına baxdı:

- Ay arvad, ümidini üzmə, Allah kərimdir - dedi.- Sabaha çox var. Səbrin olsun. Bir də ki, narahat olma, usta dostlarımdan borc alaram, ötüşərik, pensiyamı alanda qaytararam. Həm də alacaqlarım da var... Bu yağışda, bu soyuqda meydanda kim olar axı?

Zərri arvadın elə bil yarasının üstünə duz səpdilər:

- Pensiya, alacaqların... Elə də deyirsən ki... Nə pensiya alırsan? Almağınla qurtarmağı bir olur, iki həftənin ərzağını güclə görür... Alacaqların da ki... Xırda-xırda verirlər, adamın gözünə də gəlmir. O vaxtlar sözə qulaq asmadın axı, - Zərri arvad olub-keçənləri qurdaladı, - Nazirlər Sovetində qalıb işləsəydin, Dövlət qulluqçusu kimi pensiyaya çıxardın, səkkiz yüz, ya da min manat alardın, rahatca dolanardıq. Daha bu yaşında bənnalıq, suvaqçılıq eləməzdin. Dedin ki, yox e, bura mənim yerim deyil. Burada işləyən adamın nə bilim neçə sifəti olmalıdır, rüşvət almalıdır, bir çox işlərdən çıxmalıdır.- Gəlib usta Qədirlə üzbəüz durdu. İndi guya o idarələrdə işləyənlər rüşvət almırlar? Alırlar. Düz deyil? Amma onların içərisində rüşvət almayanlar da var. O var ki, o rüşvət almayanlar sabah başqa bir rüşvət almayanı dartıb yanına gətirə bilər. Yavaş-yavaş onların sayı çoxalar. Özün ki, savadlı adamsan, bilmirsən ki, gec-tez belə olacaq? Nə olar ki, usta işləyəndə... Sən də onlar kimi olardın da... İşindən çıxmaqla nə qazandın? Sənsə indi gözünü dikmisən pensiyaya. O pensiyaya ki, iki həftəlik ərzağımızı güclə görür. Alacaqların da ki...

Qədir usta həmişə olduğu kimi, bu dəfə də arvadı ilə mübahisə eləmədi, onu başa salmağa çalışmadı, nəyin düz, nəyin əyri olduğunu demədi. - Qismət belə imiş, - dedi. - Sonra yenə pəncərədən çölə baxmağa başladı.

Zərri arvad nəsə demək istəyirdi ki, sözü ağzında qaldı. Çünki sulu qar təkəmseyrək atırdı, günəşin şüaları ağ buludları qızartmışdı... Və gördü ki, əri dolaba yaxınlaşıb onu açdı, gödəkçəsini geyindi, papağını başına qoyub otaqdan çıxdı. Bir dəqiqə belə çəkmədi ki, həyətdə göründü.

Usta Qədir çəkmələrini geyinmişdi, əlində də alətlərini daşıdığı sürtülüb yeyilmiş bir torba vardı. Bir neçə addım həyət qapısına sarı gedib birdən geri döndü və evə tərəf gəldi. Zərri arvad onu qapıda qarşıladı:

- Yaxşı oldu qayıtdın, çörəyini ye get, - dedi.

Qədir usta ona zənnlə baxıb dedi:

- Ona görə qayıtmadım. Qayıtdım deyəm ki, səni təbrik eləyirəm. Axı bu gün evlənməyimizin qırx ili tamam olur.

Zərri arvad irəli yeriyib üzünü onun sinəsinə qoydu. O da arvadının yumşaqlığını itirib codlaşmış saçlarını sığalladı. Və birdən-birə Zərri arvad uşaq kimi hönkürüb ağladı....

**BAYRAM İSGƏNDƏRLİ**



Kaspi.-2016.- 17-19 sentyabr.-S.20